**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN RESPUBLİKASINDA DÖVLƏT İDARƏÇİLİK SİSTEMİNDƏ İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏRİN ROLU

İxtisas: 5909.01 – "Dövlət idarəçiliyi"

Elm sahəsi: Siyasi elmlər

İddiaçı: **Şahmir Yusif oğlu Yadigarov**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2026**

Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | siyasi elmlər doktoru, professor<br>**Ramiz Məmmədəli oğlu Sevdimalıyev** |
| Rəsmi opponentlər: | siyasi elmlər doktoru, professor<br>**İradə Tofiq qızı Nuriyeva** |
| | siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent<br>**Ramid Nəriman oğlu Hüseynov** |
| | siyasi elmlər üzrə fəlsəfə doktoru<br>**Vasif Sultan oğlu İsmayılov** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya şurası

| | |
|---|---|
| Dissertasiya şurasının sədri: ____________ | akademik<br>**Urxan Kazım oğlu Ələkbərov** |
| Dissertasiya şurasının elmi katibi: ____________ | siyasi elmlər doktoru, professor<br>**Sevda Ağamirzə qızı Əliyeva** |
| Elmi seminarın sədri: ____________ | siyasi elmlər doktoru, professor<br>**Aqiyə Həbib qızı Naxçıvanlı** |

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** İctimaiyyətlə əlaqələr (PR) təşkilat və onun ətraf mühiti arasında əlaqələrin idarə edilməsi və saxlanması ilə məşğul olan bir ünsiyyət mexanizmidir. Bir idarəetmə mexanizmi kimi PR-in mənşəyi Qərb ölkələrindən, xüsusən də ABŞ-dan götürülmüşdür. İctimaiyyətlə əlaqələr dövlət idarəçilik sisteminin mühüm elementi olmaqla müasir siyasi elm üçün xüsusi aktuallıq kəsb edir ki, bunun da belə olması bir sıra amillərlə şərtlənir:

- Dövlət orqanlarının legitimliyi və dəstəyi: ictimaiyyətlə qarşılıqlı əlaqə dövlət orqanlarının legitimliyini gücləndirməyə və ictimai dəstək qazanmağa kömək edir, vətəndaşlarda hökumətə inamı artırır.

- Şəffaflığın və aşkarlığın artırılması: ictimaiyyətlə əlaqələr dövlət orqanlarında şəffaflığın və aşkarlığın artırılmasına töhfə verir. Daimi məlumatlandırma işi, ictimai məsləhətləşmələr və hesabatlar vətəndaşlara və təşkilatlara dövlətin fəaliyyətindən xəbərdar olmaq, habelə onun hərəkətlərini izləmək və qiymətləndirmək imkanı verir.

- Müxtəlif maraq və ehtiyacların nəzərə alınması: ictimaiyyətlə əlaqələr siyasətin işlənib hazırlanmasında və həyata keçirilməsində müxtəlif fikir və təkliflərin nəzərə alınmasına imkan verir və bu, daha balanslı və effektiv qərarların qəbul edilməsinə səbəb olur.

- Problemlərin proaktiv həlli və münaqişələrin qarşısının alınması: ctimaiyyətlə müntəzəm qarşılıqlı əlaqə dövlət idarəçiliyində problemlərin müəyyən edilməsinə kömək edir. Bu, cəmiyyətdə münaqişələrin həlli və ya qarşısının alınması üçün tədbirlər görməyə imkan verir.

- Korrupsiya ilə mübarizənin səmərəliliyinin artırılması: ictimaiyyətlə əlaqələr sistemi korrupsiyaya qarşı mübarizədə alət ola bilər. Qərarların qəbulu prosesində vətəndaşların iştirakı, öz rəy və təkliflərini bildirmək imkanları şəffaflığın artırılmasına və vəzifə səlahiyyətlərindən sui-istifadənin qarşısının alınmasına kömək edir.

Qeyd olunanlar dövlət idarəçiliyində ictimaiyyətlə əlaqələrin rolunun öyrənilməsinin siyasi elmin tədqiqat sahəsinin genişləndirilməsinə səbəb olmasını və bu problemin araşdırılmasının zəruriliyini təsdiq edir.

Siyasi elm çərçivəsində dövlət idarəçiliyində PR modellərinin tədqiqinə geniş yer verildiyi müasir dövrdə bu sahədə Azərbaycan modelinin öyrənilməsi xüsusi əhəmiyyət və aktuallıq kəsb edir ki, bu da həmçinin müqayisəli politoloji araşdırmaların genişləndirilməsinə imkan verir.

Azərbaycanda dövlət idarəçilik sistemində İKT-nin tətbiqi nəticəsində Elektron hökumət institutunun qurulmasını, idarəetmənin modernləşməsi proseslərinin nəticələri kimi dövlət-özəl tərəfdaşlıq mexanizminin tətbiqini, demokratik təkmilləşmə proseslərinin nəticəsi kimi şəffaflaşma, idarəetmə prosesinə vətəndaş cəmiyyəti institutlarının cəlb edilməsi, açıq hökumət təşəbbüslərinin reallaşmasını misal kimi göstərmək olar. Cəmiyyət və dövlət arasında münasibətlər sisteminin formalaşması siyasi modernləşmənin vacib elementinə çevrilməklə, cəmiyyətdən gələn çağırışlara daha tez reaksiya verə bilmək və digər başqa amillər hər iki tərəf arasında əlaqələndirmə vasitələrinin məzmununa yenidən baxışı zəruri etmişdir. Nəticə etibarı ilə cəmiyyət və dövlət arasında əlaqələndirici mexanizm və institut kimi ictimaiyyətlə əlaqələrin tədqiqi xüsusi aktuallıq kəsb etmişdir.

İctimaiyyətlə əlaqələr sahəsində ilk tədqiqatçılardan biri Scott Blekdir. O, ABŞ-da PR-ın mənşəyi və onun bir peşə kimi inkişafını şərtləndirən amilləri araşdırıb. Blek iddia edirdi ki, PR ictimai rəyi öyrənmək, ona konkret məqsəd və üsullarla təsir etmək, həqiqətə və tam məlumatlara əsaslanan harmoniyaya nail olmaq sənətidir[1].

20-ci əsrin əvvəllərində ABŞ-da ictimai münasibətlərin tədqiqatçılarından biri Y.Li idi[2]. O, ictimai əlaqələrə müstəqil bir fenomen kimi baxır və onu idarəetmə subyektlərinin kommunikativ fəaliyyəti ilə izah etməyə çalışırdı. Y.Li və S.Blek ABŞ sosiologiya elmində ictimai münasibətlərin öyrənilməsinin ilk qabaqcılları hesab olunurlar. Sonrakı illərdə bu fenomen təkcə ABŞ-da deyil, həm də Qərbi Avropa ölkələrində, əsasən Böyük Britaniya və Almaniyada öyrənilməyə başlandı. Bu sahədə T.Bivins, S.Cutlip, D.L.Hofman

---

[1] Блэк, С. «Паблик рилейшнз. Что это такое» / С.Блэк. – Москва: Модино пресс, – 1989. – 240 с.

[2] Li, Y. China’s Soviet Dream: Propaganda, Culture, and Popular Imagination / Y.Li. – 2nd Edition. – London: Routledge, – 2021. – pp. 26-29.

araşdırmaları önə çıxır. Bu tədqiqatçılar daha çox ictimai əlaqələr problemini ümumi formada öyrənirlər[3].

XX əsrin 90-cı illərindən ictimai əlaqələr dövlət idarəçiliyinin kommunikativ mexanizmi kimi öyrənilməyə başlandı. İlk dövrlərdə bu sahədə tədqiqatlar əsasən ABŞ və Qərbi Avropada aparılmışdır. İctimai münasibətlərin dövlət idarəçiliyi mexanizminə çevrilməsi XX əsrin 90-cı illərindən başlayaraq Qərb ölkələrində, xüsusən də ABŞ və Böyük Britaniyada tətbiq edilən siyasi idarəetməyə və siyasi kommunikasiya metodlarına marağın artması ilə bağlıdır. Dövlət idarəçiliyi sistemində ictimai əlaqələrdən istifadəni tədqiq edən amerikalı politoloq C.Qordon dövlət idarəçiliyində ictimaiyyətlə əlaqələri idarəetmə qərarlarının qəbulu prosesində dövlətin ictimai dəstəyi almaq üçün atdığı addımlar məcmusu kimi izah edib.

Qərbdə dövlət idarəçiliyi sistemində ictimaiyyətlə əlaqələr mexanizminin həyata keçirilməsinin xüsusiyyətlərini öyrənən D.Rur, S.Ketçlib, T.Kelleher, S.Bouen, B.Roulins, T.Manninq, R.Smit və M.Turney kimi ekspertlər ictimai münasibətlərə idarəetmə mexanizmi, kommunikativ fəaliyyət kimi baxaraq, dövlət idarəçiliyində ictimai münasibətlərin iqtisadi maraqlardan azad edilməsinin tərəfdarıdırlar. Bu tədqiqatçılar dövlət idarəçiliyində ictimai münasibətlərin müxtəlif aspektlərini öyrənirlər[4].

Məsələn, S.Ketçlib dövlət idarəçiliyində ictimai əlaqələrdən istifadənin məqsədlərini təsnif edir. Alman mütəxəssis T.Kelleher ictimai əlaqələri siyasi kommunikasiya mexanizmi hesab edir, bu mexanizmdən istifadəni məcburedici mexanizmlərdən imtina və cəmiyyətlə tərəfdaşlıq qurmaq istəyi kimi izah edir. O, bu kontekstdə

---

[3] Bivins, T. Mixed Media: Moral Distinctions in Journalism, Advertising, and Public Relations / T.Bivins. – 3rd Edition – London: Routledge, – 2023. – 242 p.; Cutlip, S. The Unseen Power: Public Relations: A History, Lawrence Erlbaum Associates / S.Cutlip. – New York: Routledge, – 1994. – 830 p.; Hoffmann, D.L. The Memory of the Second World War in Soviet and Post-Soviet Russia / D.L.Hoffmann. – London: Routledge, – 2023. – 386 p.

[4] Kelleher, T. Public Relations / T.Kelleher. – 1st Edition. – New York: Oxford University Press, – 2018.; Manning, M.J. Historical Dictionary of American Propaganda / M.J.Manning. – London: Routledge, – 2004. – 448 p.; Smith, R.D. Strategic Planning for Public Relations / R.D.Smith. – London: Lawrence Erlbaum Associates, – 2005. – 403 p.; Turney, M. “Government Public Relations” // – Northern Kentucky University: Online Readings in Public Relations.

vətəndaş cəmiyyəti institutlarının yetkinliyini və dövlətin demokratik mahiyyətini qeyd edir. İctimaiyyətlə əlaqələr mexanizminin dövlət idarəçiliyində istifadə xüsusiyyətləri də bu mexanizmin həyata keçirilməsinin funksional səbəbləri G.Bouen, B.Roulins və T.Martin tərəfindən nəzərdən keçirilmişdir.

Sələflərindən fərqli olaraq R.Smit dövlət idarəçiliyində ictimai əlaqələri institusional kontekstdə araşdırmağa çalışır. O, dövlətdə bu işlə məşğul olan xüsusi qurumlara ehtiyac olduğunu göstərir. R.Smit bu qurumların yerinə yetirməli olduğu işlərin təsnifatını da təqdim edir[5].

Dövlət idarəçiliyində ictimaiyyətlə əlaqələr mexanizmindən istifadənin xüsusiyyətləri təkcə Qərbdə deyil, həm də keçmiş SSRİ ölkələrində öyrənilir. Rusiyada bu mövzuda çoxlu araşdırmalar aparılır. A.Markov, V.Komarovski, A.Belova, S.Varakuta, A.Çumikov kimi mütəxəssislər bütövlükdə dövlət idarəçiliyinin mexanizmi kimi ictimai münasibətlərin müxtəlif aspektlərini öyrənirlər: təbiəti, quruluşu, funksiyası və istifadə məqsədi daxil olmaqla[6].

Baxılan problem müxtəlif aspektlərdən Azərbaycan mütəxəssisləri tərəfindən də tədqiq edilmişdir. Azərbaycan alimlərindən Ə.Abbasov, M.Bayramov, C.Cabarov, V.Əlibəyov, M.Həsənov, Ə.İsrailzadə, Ə.Amaşov, İ.Hüseynov, S.Əmirxanov, Ü.İmaməliyeva, V.İsmayılov, B.Kərimov, O.Məmmədov, R.İsmayılov, Ü.Orucov və başqaları problemin nəzəri – metodoloji aspektlərini və Azərbaycanda ictimaiyyətlə əlaqələrin mövcud durumunu araşdırmışlar[7].

---

[5] Smith, R.D. Strategic Planning for Public Relations / R.D.Smith. – London: Lawrence Erlbaum Associates, – 2005. – 403 p.

[6] Марков, А.А. Теория и практика связей с общественностью. Учебное пособие / А.А.Марков. – Санкт-Петербург: Санкт-Петербургский государственный инженерно-экономический университет, – 2011. – 175 с.; Комаровский, В.С. Государственная Служба и СМИ / В.С.Комаровский. – Воронеж: Издательство ВГУ, – 2003. – 114 с.

[7] Abbasov, Ə. İnsan haqları və ictimai rəy. – Bakı: Təknur, – 2013. – 218 s.; Həsənov, M. Dövlət orqanlarında ictimaiyyətlə əlaqələrin təşkili və idarə olunması / M.Həsənov, F.Tağızadə // Geostrategiya jurnalı, – Bakı: – 2019. № 04 (52), – s.21-25.; İsrailzadə, Ə. Təşkilat və qurumlarda ictimaiyyətlə əlaqələrin fəaliyyətinin əhəmiyyəti // Azərbaycan Aqrar Elmi, – 2019. №3, – s.144-145.; Hüseynov, İ. İctimaiyyətlə əlaqələr. Ali məktəblər üçün dərslik / İ.Hüseynov, S.Əmirxanov. –

M. Həsənov “Dövlət orqanlarında ictimaiyyətlə əlaqələrin təşkili və idarə olunması” adlı məqaləsində XX əsrin fenomeni olan ictimaiyyətlə əlaqələrin mahiyyəti və yaranması tarixini təhlil edir, ABŞ, İtaliya və Fransanın nümunəsində dövlətin ictimayyətlə əlaqələr üzrə fəaliyyətinin məqsəd və istiqamətlərini nəzərdən keçirir[8].

Ü.İmaməliyeva tərəfindən ictimaiyyətlə əlaqələr siyasi texnologiyaların bir növü kimi araşdırılır. Onun həmin problemə həsr olunmuş məqaləsində PR-ın bu kontekstdə əsas cəhətləri , həmçinin auditoriya ilə əlverişli münasibətlərin qurulmasına yönələn idarəçilik fəaliyyəti kimi təhlil edilir, bir təbliğat vasitəsi kimi uğurunu təmin edən amillər açılıb göstərilir[9].

Beləliklə, problemlə bağlı elmi ədəbiyyatın təhlili göstərir ki, tədqiqat mövzusunun müxtəlif aspektləri Azərbaycan və xarici ölkələrin alimləri tərəfindən araşdırılmışdır. Lakin Azərbaycanda dövlət idarəçilik sistemində ictimaiyyətlə əlaqələr problemi Azərbaycanda, istərsə də xarici ölkələrdə sistemli tədqiq edilməmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini Azərbaycanda dövlət idarəçilik sistemində ictimaiyyətlə əlaqələr problemi, predmetini isə dövlət idarəetmə sistemində ictimaiyyətlə əlaqələrin rolu, onların həyata keçirilməsi xüsusiyyətləri, bu sahəyə cəlb edilmiş mexanizmlər təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi Azərbaycan Respublikasında dövlət idarəçiliyi sistemində

---

Bakı: – 2017. – 478 s.; Karimov, B. Haydar Aliyev döneminde Azerbaycan Cumhuriyetinin dış politikası (1993-2003) / B.Karimov. – İstanbul: İstanbul Üniversitesi, – 2007. – 149 s.; Amaşov, Ə.M. Pablik rileyşnz: ictimaiyyətlə əlaqələr / Ə.Amaşov, M.Osmanoğlu, N.Əhmədli. – Bakı: “PS” MMC, – 2001. – 245 s.; İsrailzadə, Ə. Təşkilat və qurumlarda ictimaiyyətlə əlaqələrin fəaliyyətinin əhəmiyyəti // Azərbaycan Aqrar Elmi, – 2019. №3, – s.144-145.; Əlibəyov, V.N. İctimaiyyətlə əlaqələr. Bələdiyyələr üçün / V.N.Əlibəyov. – Bakı: – 2004, – 144 s.; İsmayılov, R. İctimaiyyətlə əlaqələr: Bütün yollar KİV-dən keçir/ R.İsmayılov. – Bakı: “Yeni nəsil”, – 2001. – 168 s.; Orucov, Ü. İctimaiyyətlə əlaqələr strategiyasında psixologiya faktoru // 525-ci qəzet. – 2022, 6 dekabr. – s.13 və b.

[8] Həsənov, M. Dövlət orqanlarında ictimaiyyətlə əlaqələrin təşkili və idarə olunması / M.Həsənov, F.Tağızadə // – Bakı: Geostrategiya jurnalı,– 2019. № 04 (52), – s.21-25.

[9] İmaməliyeva, Ü. İctimaiyyətlə əlaqələr siyasi texnologiyaların bir növü kimi // – Bakı: Bakı Universitetinin xəbərləri, Sosial siyasi elmlər, – 2021. №3, – s.21-27.

ictimaiyyətlə əlaqələrin rolunun və mexanizminin açıqlanması, reallaşması xüsusiyyətlərinin, eləcə də inkişaf perspektivlərinin araşdırılmasından ibarətdir.

Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr yerinə yetirilmişdir:

- İctimaiyyətlə əlaqələr məfhumunun mahiyyətinin, onun strukturu və funksiyalarının, o cümlədən dövlət idarəetmə sistemində ictimaiyyətlə əlaqələr mexanizminin realizə xüsusiyyətlərinin metodoloji təhlilini aparmaq;
- Dövlət idarəçiliyində ictimaiyyətlə əlaqələr mexanizminin tətbiqinin əsas funksiyalarını açıqlamaq;
- Dünya ölkələrində dövlət idarəçilik sistemində ictimaiyyətlə əlaqələr mexanizminin tətbiq xüsusiyyətlərini təhlil etmək;
- Azərbaycan Respublikasında ictimaiyyətlə əlaqələrin siyasi kommunikativ əhəmiyyətini və səciyyəvi xüsusiyyətlərini açıb göstərmək;
- Müasir dövrdə Azərbaycanda dövlət idarəçilik sistemində ictimaiyyətlə əlaqələrin tətbiqinin hüquqi aspektlərini araşdırmaq.
- Dövlət idarəçilik sistemində ictimaiyyətlə əlaqələr mexanizminin tətbiq xüsusiyyətlərini və inkişaf tendensiyalarını tədqiq etmək.

**Tədqiqat metodları.** Tədqiqatın aparılması zamanı analiz, sintez, induksiya və deduksiya kimi ümummantiqi metodlardan, eləcə də sistemli təhlil, ekspert qiymətləndirmə, müqayisəli politoloji təhlil metodlarından istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Tədqiqat zamanı aşağıdakı müddəalar ortaya qoyulmuşdur.

– İctimaiyyətlə əlaqələr dövlət idarəçiliyi sistemində vacib siyasi kommunikasiya mexanizmi kimi çıxış edir.

– İctimaiyyətlə əlaqələrin tətbiq edilməsi demokratik rejimli dövlətlər üçün xarakterik xüsusiyyətdir.

– Azərbaycan Respublikasında ictimaiyyətlə əlaqələrin dövlət idarəçiliyi reallaşması ictimai təsəvvürün formalaşmasında, milli kimliyin təşviqində və hökumətlə vətəndaşlar arasında səmərəli ünsiyyətin təşviqində həlledici rol oynayır.

– Azərbaycanda dövlət idarəçilik sistemində ictimaiyyətlə əlaqələrin qurulması konkret hüquqi bazaya əsaslanır, ölkədə

davamlı xarakter almış ictimai-siyasi sabitliyin vacib amillərindən birini təşkil edir.

– Azərbaycanda ASAN Xidmətin, DOST mərkəzlərinin fəaliyyəti, dövlət idarəçiliyində digər rəqəmsal platformaların inkişafı ictimaiyyətlə əlaqələrin səmərəliliyinin artırılmasına səbəb olur.

**Tədqiqatın elmi yeniliyi.** İşin elmi yeniliyi ilk növbədə tədqiqat probleminin qoyuluşu ilə müəyyən olunmaqla aşağıdakı tezislərdə öz ifadəsini tapmışdır:

- İctimaiyyətlə əlaqələrin mahiyyəti ilə bağlı irəli sürülən konsepsiya və yanaşmalar ümumiləşdirilmiş və bu mexanizmin dövlət idarəçilik sistemində tətbiqi xüsusiyyətləri müəyyən edilmişdir.
- Azərbaycan Respublikasında ilk dəfə dövlət idarəçilik sistemində ictimaiyyətlə əlaqələrin reallaşması xüsusiyyətləri araşdırılmış, dövlətin funksiyası kimi tədqiq edilmişdir.
- Azərbaycanda dövlət idarəçilik sistemində ictimaiyyətlə əlaqələrin hüquqi aspektləri təhlil olunmuş və gələcəkdə bu mexanizmin vahid hüquqi bazasının yaradılması perspektivləri nəzərdən keçirilmişdir.
- Azərbaycanda ictimaiyyətlə əlaqələr dövlət idarəçiliyinin modernləşməsinin tərkib hissəsi kimi araşdırılmış, bu kontekstdə reallaşması mexanizmləri tədqiq olunmuşdur.
- Dövlət orqanları və vətəndaşlar arasında rəqəmsal kommunikasiya kanallarından, ASAN Xidmət və DOST mərkəzləri kimi elektron platformalardan istifadə sahəsində Azərbaycanın müsbət təcrübəsi açılıb göstərilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işində irəli sürülən müddəalar və əldə olunan nəticələr dövlət idarəçiliyində ictimai əlaqələrin rolu ilə bağlı gələcək elmi tədqiqatlar üçün zəmin ola bilər. Dissertasiyanın nəzəri-metodoloji hissəsi elmi tədqiqatlar üçün, eyni zamanda ali məktəblərdə bu sahə üzrə qiymətli məlumatlarla zəngindir.

Praktiki baxımdan dissertasiyada DOST mərkəzlərinin fəaliyyət istiqamətləri üzrə araşdırmalar aparılmış və dövlət orqanları üçün qiymətli təkliflər verilmişdir. Bu baxımdan postmüharibə dövründə işğaldan azad edilmiş ərazilərdə sosial infrastruktur obyektlərinin

bərpası ilə bağlı DOST mərkəzlərinin fəaliyyətinə dair irəli sürülmüş müəyyən təkliflərin nəzərə alınması faydalı olar.

Dissertasiyanın materiallarından ali məktəblərdə müvafiq kursların tədrisində, mühazirə və dərs vəsaitlərinin hazırlanmasında, problemlə bağlı elmi-praktik konfransların keçirilməsində istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiyanın əsas müddəaları Azərbaycan Respublikasının müxtəlif universitetlərinin elmi jurnallarında, eləcə də xarici ölkələrdə nəşr edilən toplularda dərc edilmiş məqalə və tezislərdə öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, 2 fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın giriş hissəsi 11 səhifə – 20001 işarə, I fəsil 53 səhifə – 98703 işarə, II fəsil 48 səhifə – 91110 işarə, Nəticə 4 səhifə – 6407 işarədir. Dissertasiyanın ümumi həcmi istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla – 216226 işarədir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"**ində mövzunun aktuallığı və işlənmə dərəcəsi əsaslandırılır, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, metodları, müdafiəyə çıxarılan əsas müddəaları müəyyənləşdirilir, tədqiqatın elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası və tətbiqi, dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı, struktur bölmələrinin ayrılıqda həcmi və işarə ilə ümumi həcmi haqqında məlumat təqdim edilir.

Dissetasiyanın I fəsli **"Dövlət idarəçiliyi sistemində ictimaiyyətlə əlaqələr mexanizminin mahiyyəti və tətbiq xüsusiyyətləri"** adlanır. Fəsil 3 paraqrafdan ibarətdir və ümumilikdə problemin nəzəri metodoloji təhlilinə həsr edilmişdir.

Fəslin birinci paraqrafı ***"İctimaiyyətlə əlaqərin tədqiqinin nəzəri-metodoloji əsasları"*** adlanır. Bu paraqrafda ümumiyyətlə ictimaiyyətlə

əlaqələrin mahiyyətinin açılmasına cəhd edilir.Bu baxımdan qeyd olunur ki, XX əsrin 60-cı illərində Almaniyada, sonralar isə bütün Avropa üçün aktuallıq kəsb edən PR konsepsiyalardan birinin əsasını qoyan Albert Oekl hesab edirdi ki, PR texnologiyaların əsas vəzifəsi fərdlərə mövqelərini müəyyən etməyə kömək etmək, düzgün informasiya almağa və seçim etməyə imkan, şərait yaratmaqdır. İctimaiyyətlə əlaqələrin araşdırılmasına həsr olunmuş hnəzəri yanaşmaların təhlili əsasında Harold Lassuelin, Volter Lippmanın, Enn Qreqorinin, Ralf Tençin və başqalarının xidmətləri qeyd olunur[10].

Nəzəri-metodoloji təhlil nəticəsində belə qənaətə gəlinir ki, ictimaiyyətlə əlaqələrin mahiyyəti təşkilat və onu əhatə edən cəmiyyət arasında qarşılıqlı əlaqə, etibar və anlaşma yaratmaq və saxlamaqdır. Bu kommunikasiyaya müştərilər, tərəfdaşlar, işçilər, investorlar, media, hökumət və ictimai təşkilatlar kimi müxtəlif maraqlı tərəflərlə ünsiyyət daxildir.

İctimaiyyətlə əlaqələr bu və ya digər təsisata aşağıdakı vəzifələrin öhdəsindən gəlməyə imkan verir:

1. Bu və ya digər təsisatın fəsliyyəti, xidmət və məhsulları haqqında məlumatın ötürülməsi.

2. Fəaliyyəti ilə bağlı təsisatda cəmiyyət və onun üzvləri ilə qarşılıqlı kommunikasiya qurmaq, sonuncuları maraqlandıran sualları cavalandırmaq.

3. Bu və ya digər təsisata cəmiyyət içində nüfuz, etibar və imic formalaşdırmaq.

4. Böhran vəziyyətlərinə cavab vermək və təşkilatın nüfuzuna mənfi təsirləri idarə etmək.

5. Cəmiyyətdə təşkilatın maraqlarını qorumaq və onun təşəbbüslərinə dəstək axtarmaq.

Effektiv ictimaiyyətlə əlaqələr kommunikasiya strategiyalarının işlənib hazırlanmasını, müxtəlif kommunikasiya kanallarından (məsələn, press-relizlər, mətbuat konfransları, sosial media, korporativ

---

[10] Lippmann, W. (1922). *Public Opinion*. New York: Harcourt, Brace & Company; Lasswell, H. D. (1948). The Structure and Function of Communication in Society;. Tench, R., & Yeomans, L. (2017). *Exploring Public Relations*.

internet saytları və s.) istifadə etməyi və kommunikasiya fəaliyyətinin nəticələrinin təhlilini və ölçülməsini tələb edir.

Araşdırmalar göstərir ki, PR-ın öyrənilməsinin nəzəri-metodoloji əsaslar bu sahənin sistemli şəkildə tədqiq edilməsinə imkan verir.

Fəslin ikinci paraqrafı ***"Dövlət idarəetmə sistemində ictimaiyyətlə əlaqələr mexanizmi və onun tətbiq xüsusiyyətləri"*** adını daşıyır. Artıq burada söhbət sırf dövlət idarəçilik sistemində ictimaiyyətlə əlaqələrdən gedir. Hər şeydən öncə ictimaiyyətlə əlaqələr dövlət və cəmiyyət münasibətlərinin təzahürü kimi izah olunur. Burada diqqət dövlətin kommunikativ funksiyasından gedir.

İnformasiya cəmiyyəti şəraitində, qlobal çağırışların diqtəsi ilə dövlət idarəçilik sistemlərində oxşar transformasiyalar baş verir. Bu transformasiyaların əsas təzahürlərindən biri nümayəndəli demokratiyadan birbaşa demokratiyaya keçid təşkil edir. İstər dövlət, istər cəmiyyət daha yaxın təmas vasitələri axtarışındadır. İdarəetmə sistemində ictimaiyyətlə əlaqələrin tətbiqinə olan zərurət ilk növbədə buradan qaynaqlanır. Paraqrafda dövlət idarəetmə sistemində ictimaiyyətlə əlaqələrin tətbiqinin mahiyyətini açıqlamaq üçün müxtəlif qərb və yaxın qonşu ölkələrdən olan mütəxəssislərin fikirlərinə, yanaşmalarına müraciət olunur. Nəticə etibarı ilə dövlət idarəetmə sistemində ictimaiyyətlə əlaqələrin mahiyyəti, onun funksiya və vəzifələri açıqlanır.

Müəyyən olunur ki, dövlət idarəetmə sistemində ictimai əlaqələrə dövlət orqanlarının və təşkilatlarının əhali, ictimai birliklər, biznes sektoru və digər maraqlı qruplarla qarşılıqlı əlaqəsi daxildir. Onun mahiyyəti dövlət qərarlarının qəbulu və siyasətin həyata keçirilməsində açıqlığı və şəffaflığı təmin etmək üçün dialoq qurmaq və məlumat mübadiləsi aparmaqdır.

Dövlət idarəçiliyində ictimai münasibətlərin əsas məqsədlərinə aşağıdakılar daxildir:

1. Artan təbliğat. Dövlət orqanları öz fəaliyyətləri, qəbul etdikləri qərarlar və gələcək üçün planlar barədə ictimaiyyəti mütəmadi olaraq məlumatlandırmalıdırlar. Bu, ictimai görüşlər, press-relizlər, mətbuat konfransları və digər ünsiyyət formaları vasitəsilə həyata keçirilə bilər.

2. İctimai rəyin nəzərə alınması. Dövlət orqanları siyasət hazırlayarkən və qərar qəbul edərkən ictimai rəy və təklifləri nəzərə almalıdırlar. Buna nail olmaq üçün rəy əldə etmək və müxtəlif əhali qruplarının maraqlarını nəzərə almaq məqsədilə ictimai dinləmələr, məsləhətləşmələr və sorğular keçirilə bilər.

3. Vətəndaşların iştirakını dəstəkləmək. Dövlət idarəçiliyində ictimai əlaqələr vətəndaşların siyasi və ictimai həyatda fəal iştirakını təşviq etmək məqsədi daşıyır. Buraya informasiya təminatı, qərarların qəbul edilməsində iştirak, dövlət xidmətlərinin təşkili və vətəndaşların iştirakı üçün əlverişli şərait yaratmaq üçün hüquqi və institusional mühitdə dəyişikliklər daxil ola bilər.

4. Münaqişənin həlli. İctimaiyyətlə əlaqələr dövlət orqanları ilə icma qrupları arasında münaqişələrin və mübahisələrin həllində də rol oynaya bilər. Bura danışıqlar, barışıq prosedurları və kompromis həll yollarının axtarışı daxil ola bilər.

Bütövlükdə, dövlət idarəçiliyində ictimai əlaqələr hökumətin etimadını, legitimliyini və effektivliyini artırır, demokratiyanın və vətəndaş cəmiyyətinin inkişafına töhfə verir.

Yarımfəsildə diqqət yetirilən məsələlərdən biri dövlət idarəçiliyi sistemində ictimaiyyətlə əlaqələrin reallaşması mexanizmləridir. Bununla bağlı dissertasiyada ümumi araşdırma nəticəsində bu mexanizmlər təsnifləndirilmiş, dövlət idarəçiliyində ictimai münasibətlərin əsas formalarına mətbuat xidməti və press relizlər; sosial media; ictimai tədbirlərin təşkili; məsləhətləşmə və əks əlaqə; vətəndaş jurnalistikası; İctimai hesabatlılıq və şəffaflıq və s. aid edilmiş, onların hər birinin məzmunu açıqlanmışdır.

*Bu fəslin* ***"Dünya ölkələrinin dövlət idarəçiliyi sistemində ictimaiyyətlə əlaqələrin tətbiq xüsusiyyəti"*** adlanan paraqrafında bu sahədə beynəlxalq praktikanın analizi aparılır.

Qeyd edilir ki, bu sahədə tətbiq edilən metodların rəngarəngliyi baxımından ilk yerdə ABŞ durur. Dinamik cəmiyyəti ilə ABŞ hökuməti öz vətəndaşları ilə ünsiyyət qurmaq, inam yaratmaq, siyasət formalaşdırmaq və beynəlxalq mövqeyini qorumaq üçün böyük ölçüdə PR strategiyalarına güvənir.

Dövlət idarəçiliyində PR texnologiyaları ABŞ-la yanaşı Böyük Britaniyada da tətbiq olunur. Zəngin siyasi tarixi, özünəməxsus

cəmiyyəti və inkişaf edən media orqanları ilə Böyük Britaniya hökuməti vətəndaşlarla effektiv ünsiyyət qurmaq, onlarda özlərinə qarşı etimad yaratmaq və mürəkkəb siyasi çağırışları həll etmək üçün PR strategiyalarına əsaslanır. Böyük Britaniya hökumətində PR şəffaflığın və hesabatlılığın qorunmasının ayrılmaz hissəsidir. Hökumət siyasət və qərarları ictimaiyyətə çatdırmaq üçün müntəzəm olaraq press-relizlərdən, rəsmi internet saytlarından və hökumət brifinqlərindən istifadə edir.

Dünya ölkələri arasında ABŞ və Birləşmiş Krallıq PR mexanizmlərini ən uğurla istifadə edən dövlətlərdir. Ancaq bu o demək deyil ki, onlardan başqa bu sahədə uğur qazanan ölkələr yoxdur. Zəngin tarixi olan Fransa da effektiv idarəetmədə PR-dən istifadə edir. Fransa idarəçiliyində PR şəffaflığın və hesabatlılığın təmin edilməsində mühüm rol oynayır. Dövlət qurumları və məmurlar məlumatları ictimaiyyətə çatdırmaq və vətəndaş sorğularına cavab vermək üçün müxtəlif kanallardan istifadə edirlər. “*Loi CADA”* (Fransa İnformasiya Azadlığı Aktı) hökumətin şəffaflığa sadiqliyini vurğulayır. “*Transparence Sante”* kimi şəffaflıq təşəbbüsləri səhiyyə xidmətlərində və əczaçılıq sənayesində şəffaflığı təşviq edərək, səhiyyə məlumatlarına ictimai çıxışı təmin edir.

Bəzi digər ölkələrə də qısa olaraq nəzər salaq. Çinin idarəçiliyində PR təşəbbüsləri 1949-cu ildə Çin Xalq Respublikasının qurulmasından əvvəl nisbətən məhdud idi. Mao Tzedunun rəhbərliyi altında Çin *Böyük Sıçrayış* və *Mədəni İnqilab* kimi geniş təbliğat və kütləvi səfərbərlik kampaniyalarını icra etdi. Bu kampaniyalar kommunist ideologiyasını təbliğ etmək və ictimai rəyə nəzarət etmək üçün böyük ölçüdə PR-ə arxalanırdı. 1970-ci illərin sonlarında Çin Den Syaopinin başçılığı ilə iqtisadi islahatlara başladı. PR “islahat və açıqlıq” siyasətinin təşviqində, xarici investisiyaların cəlb edilməsində və Çinin qlobal ticarət üçün sabit və cəlbedici bir yer kimi təqdim edilməsində rol oynadı.

**“Müasir Azərbaycanda dövlət idarəçilik sistemində PR mexanizminin inkişaf xüsusiyyətləri və perspektivləri”** adlanan ikinci fəsil 3 paraqrafdan ibarətdir.

Birinci paraqraf ***“İctimaiyyətlə əlaqələr dövlət və cəmiyyət arasında ictimai-siyasi kommunikasiyanın təzahürü kimi:***

*Azərbaycan Respublikası nümunəsində”* adını daşıyır. Burada qeyd olunur ki, Azərbaycan müstəqil dövlət kimi PR çatışmazlığı problemi ilə müstəqilliyin ilk illərində xaos və hakimiyyətsizlik, bütün sahələrdə dərinləşən böhranlar, qeyri-sabitlik şəraitində rastlaşmalı olmuşdur. Yalnız Ümummilli lider Heydər Əliyev ölkə rəhbərliyinə qayıtdıqdan sonra ictimaiyyətlə əlaqələr siyasəti məqsədyönlü və sistemli şəkildə həyata keçirilmişdir.

Ulu öndərimizin bu sahədəki siyasi kursu Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən böyük uğurla davam etdirilir. Yeni keyfiyyət mərhələsində dövlətimizin PR siyasəti bir sıra istiqamətlər üzrə daha da inkişaf etdirilir, modernləşmə, rəqəmsal texnologiyaların tətbiqi, interaktivlik və s. kimi xüsusiyyətlərlə səciyyələnir.

PR funksiyasının həyata keçirilməsi üçün dövlət orqanları tərəfindən prosesə cəlb edilmiş mexanizmləri belə qruplaşdırmaq olar:

1. Dövlət KİV-ləri
2. Prezident Müraciətləri
3. İctimai tədbirlər və mitinqlər
4. Rəsmi nəşrlər
5. İcma görüşləri
6. Hökumət saytları
7. İctimai elan və anonslar.

İnstitusional şəkildə PR texnologiyalarının Azərbaycanda dövlət idarəçilik sisteminin səmərəli bir mexanizminə çevrilməsi prosesi artıq 2010-cu ildən başlanır. Bu prosesi sürətləndirən amillərdən biri internet kommunikasiya vasitələrinin cəmiyyətin həyatında dərin kök salması və onların artan rolu ilə bağlıdır. Xüsusən bu dövrlərdə sosial şəbəkələrin kommunikativ mexanizm kimi rolu artmaqda davam edir və onlar əsas kommunikativ ünsiyyət kanalı rolunu oynamağa başlayır. Dövlət orqanlarının sosial şəbəkələrdə platformaları və rəsmi səhifələri meydana gəlir. Sosial şəbəkələr Azərbaycanın dövlət idarəçilik sistemində ictimai münasibətlərin formalaşmasında mühüm rol oynayır. Onlar dövlət orqanları və məmurları üçün vətəndaşlarla ünsiyyət qurmaq, habelə dövlət və onun idarə edilməsi ilə bağlı mühüm hadisələr, qanunvericilik fəaliyyəti və digər məsələlər barədə məlumatlandırmaq üçün platforma yaradır.

Sosial şəbəkələr sayəsində dövlət qurumları qanunvericilikdə nəzərdə tutulan dəyişikliklər, aparılan islahatlar, nailiyyətlər və dövlət planları haqqında məlumatları tez və operativ şəkildə yaya bilir. Bundan əlavə, vətəndaşların fikirlərini öyrənmək və qərar qəbul edərkən nəzərə almaq üçün ictimaiyyətlə məsləhətləşmələr, sorğular və müzakirələr aparmağa imkan verirlər.

Sosial media, həmçinin vətəndaşlara məlumat əldə etmək və hökumətin fəaliyyətinə nəzarət etmək imkanı verməklə hökumətdə şəffaflığı və açıqlığı təşviq edir. Onlar ictimai müzakirələr və hökumətlə vətəndaşlar arasında dialoq üçün imkanlar yaradır ki, bu da dövlətin inamını və legitimliyini artırmağa kömək edir.

Dövlət idarəetmə sistemində ictimaiyyətlə əlaqələrin qurulmasına mühüm rol oynamış proseslərdən biri Azərbaycanda electron hökumət quruculuğu olmuşdur. 2010-2012-ci illərdə ilkin mərhələsi gerəkləşən "Elektron Azərbaycan" layihəsi çərçivəsində qurulan elektron hökumət institutları, ASAN Xidmət və DOST kimi təsisatlar dövlət səviyyəsində ictimaiyyətlə əlaqələrin formalaşmasında mühüm rol oynamışdır.

Azərbaycanın dövlət idarəetmə sistemində ictimai münasibətlərin formalaşmasında elektron hökumətin rolu dövlətlə vətəndaşlar arasında səmərəli ünsiyyətin təmin edilməsindən ibarətdir. Elektron hökumət hökumətin fəaliyyəti haqqında məlumat əldə etmək imkanı verir, qərarların qəbulunda vətəndaşların iştirakını təşviq edir, dövlət işində açıqlığı və şəffaflığı təmin edir.

Azərbaycanda elektron hökumət sisteminə müxtəlif onlayn platformalar, veb portallar və elektron xidmətlər daxildir ki, bu da vətəndaşlara məlumat əldə etmək, ərizə və şikayətlər vermək, ictimai məsləhətləşmələrdə iştirak etmək və hökumət qərarlarını müzakirə etmək imkanı verir.

Elektron hökumət həm də bürokratiyanın azaldılmasına və dövlət xidmətlərinin keyfiyyətinin yüksəldilməsinə kömək edir. Vətəndaşlar ofislərə getmədən, vaxta qənaət edərək və xidmət səviyyəsini yaxşılaşdıraraq, dövlət qurumları ilə məsafədən əlaqə saxlaya bilərlər.

Elektron hökumətin mühüm elementi ictimaiyyətlə aktiv ünsiyyət üçün sosial şəbəkələrdən və internet mediadan istifadə

etməkdir. Dövlət orqanları öz fəaliyyətləri haqqında məlumat yerləşdirə, vətəndaşlarla onlayn məsləhətləşmələr və dialoqlar apara, habelə onların sorğu və müraciətlərinə cavab verə bilərlər.

Belə ki, Azərbaycanda elektron hökumət ictimai əlaqələrin formalaşmasında, vətəndaşların dövlət idarəçiliyində iştirakının təmin edilməsində, dövlət idarəçiliyinin şəffaflığının və səmərəliliyinin artırılmasında mühüm rol oynayır.

II fəslin ***"Azərbaycan Respublikasında dövlət idarəetmə sistemində ictimaiyyətlə əlaqələrin hüquqi statusu"*** adlanan ikinci paraqrafı ölkədə dövlət idarəçilik mexanizmi kimi ictimaiyyətlə əlaqələrin tətbiqi prosesinin normativ - hüquqi bazasının tədqiqinə həsr edilmişdir. Müəyyən edilmişdir ki, hal-hazırda Azərbaycanda dövlət idarəetmə sistemində ictimaiyyətlə əlaqələr üzrə vahid baza olmasa da, bir çox qanunverici aktlar var ki, bu mexanizmin təşkili realizəsinin həyata keçməsini təmin edir. Bu normativ aktalara aşağıdakılar daxildir:

Azərbaycanın dövlət idarərəçiliyi sistemində ictimai münasibətlərin formalaşmasının əsas hüquqi bazasına aşağıdakı elementlər daxildir:

1. Azərbaycan Respublikasının Konstitusiyası vətəndaşların söz, fikir və məlumat azadlığı hüququnu təmin edən ölkənin əsas qanunudur. O, dövlət idarəçiliyində demokratiya, şəffaflıq və aşkarlıq prinsiplərini müəyyən edir.

2. "İnformasiya azadlığı haqqında" Qanun – vətəndaşların dövlət orqanlarının sərəncamında olan məlumatı əldə etmək hüququnu tənzimləyir. Qanun dövlət orqanlarını müəyyən şərtlər və məhdudiyyətlər nəzərə alınmaqla ictimaiyyətə məlumat verməyə məcbur edir.

3. "Kütləvi kommunikasiyalar haqqında" Qanun – Azərbaycanda KİV-in fəaliyyətinin hüquqi əsaslarını müəyyən edir. Qanun informasiyanın əldə edilməsi və yayılması prosedurlarını, habelə vətəndaşların söz və məlumat azadlığı hüquqlarının müdafiəsini tənzimləyir.

4. "İnformasiya əldə etmək haqqında" Qanun – vətəndaşların dövlət və bələdiyyə orqanlarında olan məlumatları almaq hüququnu təmin edir. Qanunda vətəndaşların informasiya təminatı və hüquqlarının müdafiəsi mexanizmləri də nəzərdə tutulub.

5. “Dövlət qulluğu haqqında” Qanun – dövlət qulluqçularının işinin əsas prinsiplərini müəyyən edir. Qanun işçiləri öz işlərində, o cümlədən ictimaiyyətlə qarşılıqlı əlaqədə şəffaflıq, aşkarlıq və aşkarlıq prinsiplərinə riayət etməyə məcbur edir.

Bundan başqa, İnformasiya, informasiyalaşma və informasiyanın mühafizəsi haqqında, İctimai iştirakçılıq haqqında, Kütləvi informasiya vasitələri haqqında Məlumat azadlığı haqqında Media haqqında Vətəndaş müraciətlərinə baxılması haqqında Azərbaycan Respublikasının Qanunlarının, Dövlət və yerli özünüidarəetmə orqanlarının aktlarının elektron informasiya sistemləri vasitəsilə açıqlanması qaydalarının, Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiyanın ,Açıq hökumətin təşviqinə dair Milli fəaliyyət planlarının qəbul edilməsi də olduqca əhəmiyyətli olmuşdur.

Bu qanunlar və qaydalar Azərbaycan vətəndaşlarının məlumat almaq və dövlət idarəçiliyində iştirak hüququnu təmin edir, həmçinin dövlət orqanlarını öz işlərində aşkarlıq və şəffaflıq prinsiplərinə riayət etməyə məcbur edir.

Bundan başqa, Azərbaycanda dövlət orqanlarının daxili əsasnamələri var ki, onlar da dəqiq şəkildə bu prosesləri tənzimləməyə kömək edir. Yarımfəsildə bu əsasnamələrin bəziləri araşdırılmış və ictimaiyyətlə əlaqələrin təşkili üzrə dövlət orqanlarının vəzifə və funksiyalarını müəyyən etməyə imkan vermişdir.

İkinci fəslin 3 paraqrafı ***“Azərbaycanda ictimaiyyətlə əlaqələr institutunun bərqərar olması xüsusiyyətləri və təkmilləşmə perspektivləri”*** adını daşıyır. Bu paraqrafda Azərbaycanda dövlət idarəetmə sistemində ictimaiyyətlə əlaqələrin institusional təşkili prosesi təhlil olunur.

Bir institut kimi ictimaiyyətlə əlaqələr Azərbaycanın dövlət idarəçiliyi sisteminin tərkib hissəsi olmaqla, dövlət orqanları ilə vətəndaşlar arasında səmərəli informasiya mübadiləsinin təmin edilməsində mühüm rol oynayırlar. Bu qurumlar hökumətlə xalq arasında körpü rolunu oynayır, onlar arasında daha yaxşı anlaşmaya və qarşılıqlı fəaliyyətə kömək edir.

İctimaiyyətlə əlaqələr institutunun məqsədi ölkədə ictimai dialoqun və kommunikasiyanın keyfiyyətini yüksəltməkdir. Onun

strukturuna dövlət orqanlarının mətbuat xidmətləri, ictimai şuralar, ictimai dialoqlar, media və digər qurumlar daxildir ki, bu da dövlət və cəmiyyət arasında açıq və etimadlı dialoqun qurulmasına töhfə verir. Onlar vətəndaşların məlumatlılığının artırılmasına, vətəndaş şüurunun inkişafına və qərarların qəbulu proseslərində ictimaiyyətin iştirakına yönəlmiş müxtəlif fəaliyyət və proqramlar hazırlayır və həyata keçirirlər.

İctimai kommunikasiya institutları ölkədə söz azadlığının və fikir plüralizminin dəstəklənməsində və inkişafındamühüm rol oynayır. Onlar müstəqil medianı dəstəkləyir və sərbəst məlumat və ideya mübadiləsi üçün platformalar təqdim edirlər.

Ümumiyyətlə, Azərbaycanın Respublikasının dövlət idarəçiliyi sistemində ictimai kommunikasiya institutları demokratik proseslərin, dövlətlə xalq arasında qarşılıqlı etimadın möhkəmləndirilməsində əsas vasitədir. Onlar hər bir vətəndaşın öz fikirlərini ifadə etmək və ölkənin inkişafına töhfə vermək imkanı olan açıq və şəffaf cəmiyyətin yaradılmasına kömək edir.

Azərbaycanda dövlət idarəetməsi sistemində ictimaiyyətlə əlaqələr institutunun mövcud durumu dövlət orqanlarında bu işin təşkili forması ilə müəyyən olunur. Bu baxımdan ilk növbədə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına müraciət edək. Azərbaycanda Prezident Administrasiyasının struktur vahidləri içərisində aşağıdakı bölmələr ictimaiyyətlə əlaqələr funksiyasını yerinə yetirirlər:

1. Prezidentin mətbuat katibliyi.
2. Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi.
3. Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsi.
4. Vətəndaşların müraciətləri ilə iş şöbəsi.

Administrasiyanın strukturunda ictimaiyyətlə əlaqələrin təmin edilməsində iştirak edən struktur vahidlərinin yerinə yetirdikləri digər funksiyalar aşağıdakılardır:

1. Digər dövlət orqanlarının mətbuat xidməti orqanları ilə əlaqələrin kordinasiyasının həyata keçirilməsi.
2. Ümumilikdə dövlətin informasiya siyasətinin realizəsi prosesində iştirak.

3. Vətəndaşların qəbulu və vətəndaş müraciətlərinə baxılması.

4. Vətəndaş müraciətlərinin qeydə alınması və bu müraciətlərin vahid bazasının yaradılması.

5. Vətəndaş müraciətlərinə əsasən görülən işlərə nəzarətin aparılması.

6. Beynəlxalq görüşlərin protokol xidmətinin təşkili,

7. Siyasi partiyalar və qeyri-hökumət təşkilatları ilə əlaqələrin qurulması.

8. Əks əlaqənin təmin edilməsi, ölkədə baş verən sosial-iqtisadi, siyasi və digər proseslər barədə ölkə başçısının məlumatlandırılması.

Azərbaycanda müxtəlif dövlət orqanlarında ictimaiyyətlə əlaqələr üzrə yerinə yetirilməli olan vəzifələrin təhlili dövlət idarəetməsi sistemində ictimaiyyətlə əlaqələrin ümumi funksional məzmununu açmağa imkan verir.

Təhlillər əsasında göstərmək olar ki, ictimaiyyətlə əlaqələr bu və ya digər dövlət idarəetməsi institutunun fəaliyyətinin ictimaiyyətə açıqlanması, qərar qəbulu prosesinin və birbaşa vəzifələrin yerinə yetirilməsi üzrə şəffaflığın təmin edilməsi, ümumilikdə idarəetmə prosesində hesabatdarlığın təşkili məqsədi ilə qurulmuş idarəetmə mexanizmidir. Bu mexanizmə KİV, sosial şəbəkələr, qeyri-hökumət təşkilatları, siyasi partiyalar və, ən nəhayət, vətəndaş aid edilir.

Azərbaycanda müxtəlif dövlət orqanlarında ictimaiyyətlə əlaqələr işinin təşkili ilə bağlı əsasnamələrin təhlili bu prosesdə bütün dövlət orqanları üçün ümumi olan funksiyaların ortaq formasının müəyyən edilməsinə imkan verir:

Birincisi, bu və ya digər dövlət orqanının ictimaiyyətlə əlaqələr üzrə əsas siyasətinin reallaşması.

İkincisi, KİV-lə əməkdaşlıq və dövlət orqanının fəaliyyəti ilə bağlı cəmiyyətə KİV vasitəsilə məlumatların ötürülməsi.

Üçüncüsü, dövlət orqanlarının rəsmi internet səhifəsinin yaradılması və bu orqanın fəaliyyəti ilə bağlı məlumatların mütəmadi formada rəsmi internet səhifəsində yerləşdirilməsi.

Dördüncüsü, dövlət orqanı və cəmiyyət arasında qarşılıqlı kommunikasiyanın qurulması.

Beşincisi, vətəndaş müraciətlərinin qəbul edilməsi, baxılması, cavablandırılması.

Altıncısı, dövlət orqanlarının fəaliyyətinə nəzarət orqanı kimi ictimai nəzarət şuralarının yaradılması və onların işinin təşkilinə yardım, onların məlumatlandırılması.

Yeddincisi, dövlət orqanın fəaliyyətinin rəqəmsallaşdırılması və elektron hökumət sisteminə reinteqrasiyası və s.

İki mühüm proses Azərbaycanda dövlət idarəçiliyində ictimaiyyətlə əlaqələr institutunun formalaşması, inkişaf və təkmilləşməsi prosesində həlledici rol oynamışdır. Bunlardan biri Azərbaycanda son 10 ildə açıq hökumətin təşkili ilə bağlı aparılan islahatlardır. Azərbaycan Açıq Hökumət Tərəfdaşlığı Bəyannaməsinə qoşulmaq niyyətini bəyan edən ilk ölkələrdən olub. Hökumət təşəbbüsün yaradılmasından bir il sonra – 2012-ci ildə iki sənəd – Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Fəaliyyət Planı və Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı qəbul edib. 27 aprel 2016-cı ildə ikinci fəaliyyət planı – Açıq Hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı qəbul edilib.

Qeyd edilən Milli Fəaliyyət Planında nəzərdə tutulan tədbirlərin bir qismi ölkədə idarəetmə sistemində ictimaiyyətlə əlaqələr mexanizminin inkişafı və təkmilləşməsi baxımından mühüm əhəmiyyət kəsb etmişdir. Bunlara aiddir:

1) İnformasiya əldə edilməsinin asanlaşdırılması;
2) Dövlət orqanlarının öz fəaliyyətləri barəsində ictimaiyyətə müntəzəm məlumat verməsi;
3) Dövlət orqanlarının fəaliyyətində ictimaiyyətin iştirakının genişləndirilməsi;
4) Elektron xidmətlərin təkmilləşdirilməsi;
5) Maliyyə nəzarətini həyata keçirən orqanların fəaliyyətində şəffaflığın artırılması.

İctimaiyyətlə əlaqələrin inkişafında digər mühüm bir hadisə dövlət orqanlarının fəaliyyəti ilə bağlı İT monitorinq sisteminin yaradılması olmuşdur. "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nın dövlət qurumları tərəfindən icrasının elektron qiymətləndirilməsi, dövlət qurumları tərəfindən məlumatların elektron formada təqdim edilməsi məqsədilə Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya və Azərbaycan Respublikasının Prezidenti

yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən Avropa Şurası və Avropa Birliyi tərəfindən birgə icra edilən "Azərbaycanın korrupsiyaya qarşı mübarizə imkanlarının gücləndirilməsi" layihəsi çərçivəsində Elektron Monitorinq Sistemi (ems.gov.az) yaradılmışdır. Elektron Monitorinq Sisteminə 61 dövlət orqanı inteqrasiya edilmiş və dövlət orqanlarının hesabatları elektron sistem vasitəsilə hər bir bənd və dövlət orqanı üzrə onlayn rejimdə qiymətləndirilmişdir. Elektron Monitorinq Sistemi bu sahədə regionda ilk dəfə Azərbaycanda tətbiq edilmişdir.

Hazırda Azərbaycanda dövlət idarəçiliyində ictimaiyyətlə əlaqələrin real durumunun qiymətləndirilməsi ilə bağlı ən yaxşı faktoloji baza rolunda mütəmadi olaraq "Dövlət qurumlarında informasiya şəffaflığı" üzrə keçirilən monitorinqlərin nəticələridir. Son illərdə hər il mütəmadi olaraq aparılan monitorinqlər vasitəsilə ölkədə mərkəzi və yerli icra hakimiyyət orqanlarında informasiya şaffaflığı, informasiya əlçatanlığı, əks əlaqə və cəmiyyətlə kommunikasiya mexanizmlərinin işləmə səviyyəsi haqqında ətraflı məlumat almaq olur ki, bu məlumatlar da ölkədə idarəetmə sistemində ictimaiyyətlə əlaqələrin mövcud vəziyyətini qiymətləndirməyə imkan verir.

Azərbaycanda dövlət idarəçiliyində ictimaiyyətlə əlaqələrin təşkili hal-hazırda aktual olan 3 əsas vektor üzrə özünü daha aydın büruzə verir. Bu mənada monitorinqin obyektinə də məhz bu 3 vektor düşür:

- mərkəzi və yerli idarəetmə orqanlarının fəaliyyəti ilə bağlı informasiya mütəmadi informasiya yayımlaması;
- mərkəzi və yerli idarəetmə orqanlarının cəmiyyətlə kommunikasiyasında əks əlaqəliliyin təşkili. Bu halda söhbət əsasən dövlət orqanlarının informasiya mübadiləsi və elektron xidmət göstərməsi məsələlərindən gedir;
- dövlət orqanlarının informasiya ilə bağlı vahid inteqrasiya bazasına daxil olma vəziyyəti.

Bütövlükdə, Azərbaycan Respublikasında Prezident cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən uğurlu və innovativ siyasət çərçivəsində dövlət idarəçilik sistemində ictimaiyyətlə əlaqələr mexanizminin tam və mükəmməl reallaşması hər şeydən əvvəl səmərəli dövlətçilik təcrübəsi ilə bağlıdır. Müstəqillik dövründə qeyd edilən

mexanizmin inkişafı dövlət idarəçilik sistemi və institutlarının modernləşməsi prosesi ilə üst-üstə düşür.

Dissertasiyanın **Nəticə** hissəsində tədqiqatın yekunu üzrə əldə edilmiş nəticələr ümumiləşdirilmiş, praktik xarakterli tövsiyələr irəli sürülmüşdür. İddiaçı belə qənaətə gəlmişdir ki, müasir dövlət idarəetməsinin səmərəlliyi ictimai əlaqələr mexanizmlərinin inkişafı səviyyəsindən xeyli dərəcədə asılı olmaqla dövlət orqanlarının vətəndaşlarla daim qarşılıqlı əlaqələrinini tələb edir. İctimai kommunikasiya mexanizmlərinin inkişafı cəmiyyətin dövlət institutlarına etimadını artırır, daha rasional dövlət qərarlarının qəbul edilməsinə səbəb olur. Azərbaycan Respublikasında müasir ictimai əlaqələr sisteminin formalaşdırılması və inkişafı siyasi modernləşmə prosesinin vacib tərkib hissəsi olmaqla, ölkəmizdə PR-ın dövlət idarəçiliyində reallaşması modeli bu sahədəki müsbət təcrübəni ifadə edir və özünün maraq doğuran xüsusiyyətləri ilə fərqlənir.

Azərbaycanda ictimaiyyətlə əlaqələrin dövlət səviyyəsində həyata keçirilməsi ictimai təsəvvürlərin formalaşmasında, milli kimliyin təşviqində və hökumətlə vətəndaşlar arasında səmərəli ünsiyyətin təşviqində həlledici rol oynayır. Azərbaycan hökuməti müxtəlif maraqlı tərəflərlə əlaqə yaratmaq, ictimai narahatlıqları həll etmək və həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə güclü əlaqələr qurmaq üçün PR-ın strateji alət kimi imkanlarından istifadə edir.

Rəqəmsal texnologiyaların və elektron platformaların, sosial şəbəkələrin inkişafına yönələn dövlət siyasətinin müvəffəqiyyətlə rallaşması ictimai əlaqələrin yeni formalarının yaranmasına səbəb olur, bütün sahələrdə dövlətin təşəbbüslərinin ictimai dəstəkləri daha da genişlənir. Bu baxımdan ölkəmizdə dövlət və cəmiyyət arasında qarşılıqlı əlaqələrdə "ASAN xidmət" və "DOST" kimi innovativ servislərin tətbiqi xüsusi praktik əhəmiyyət kəsb edir. Perspektivlər baxımından rəqəmsallaşma və sosial şəbəkələr vasitəsilə vətəndaşlarla əks əlaqə mexanizmlərinin inkişaf etdirilməsi dövlət idarəçiliyində ictimaiyyətlə əlaqələrin rolunun artırılmasına xidmət edir.

**Dissertasiyanın əsas məzmunu və elmi müddəaları müəllifin aşağıdakı elmi məqalələri və elmi konfranslarda etdiyi məruzələrin materiallarında əks olunmuşdur:**

1. Dövlət idarəçiliyində PR mexanizmləri: dünya praktikası // – Bakı: Geostrategiya, Beynəlxalq ictimai-siyasi, elmi-nəzəri jurnal, sentyabr-oktyabr, – 2023. № 5(77), – s.49-52.
2. Azərbaycanda dövlət səviyyəsində ictimaiyyətlə əlaqələr sahəsinin inkişaf dinamikası // – Bakı: İnsan və biosfer, – 2023. №18, – s.235-244.
3. Azərbaycan Respublikasında dövlət idarəetmə sistemində ictimaiyyətlə əlaqələrin hüquqi statusu // – Bakı: Geostrategiya, Beynəlxalq ictimai-siyasi, elmi-nəzəri jurnal, mart-aprel, – 2024. № 2(80), – s.38-42.
4. Связь с общественностью как механизм управленческой коммуникации // – Уфа: Вестник БИСТ, (Башкирского института социальных технологий), – 2024. №2(63), – с.53-58. https: //doi.org/10.47598/2078-9025-2024-2-63-53-58./
5. Azərbaycanda PR texnologiyaları dövlət idarəçiliyində vətəndaş məmnunluğunun artırılması mexanizmi kimi // "Müasir dövrdə effektiv idarəetmənin problemləri" mövzusunda IX Respublika elmi-praktik konfransının materialları, – Bakı: ATMU, – 29 noyabr, – 2024, – s.282-284.
6. Связь с общественностью в контексте государственного управления // Международная научно-практическая конференция «История, политология, социология, философия: теоретические и практические аспекты», – Москва, LXXXVII, – 04 декабря, – 2024.
7. Информационная прозрачность в государственном управлении // Международная научно-практическая конференция «Экспериментальные и теоретические исследования в современной науке», – Новосибирск, CVII, – ноябрь, – 2024, – с.29-35.
8. Azərbaycanda dövlət idarəetmə orqanlarının kommunikasiya mexanizmləri // – Bakı: Geostrategiya, Beynəlxalq ictimai-siyasi, elmi-nəzəri jurnal, noyabr dekabr, – 2024. № 6(84).

Dissertasiyanın müdafiəsi 30 aprel 2026-cı il tarixində saat 11.00-da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı şəhəri, Lermontov küçəsi 74.

Dissertasiya ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 19 mart 2026-cı il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 17.02.2026

Kağızın formatı: 60x84 1/16

Həcm: 39520 işarə

Tiraj: 100